**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

*Bakı Qızlar Universitetinin*
*Elmi Şurasının 15 dekabr*
*2023-cü il tarixli iclasının*
*(Protokol №5)*
*qərarı ilə təsdiq edilmişdir.*

# BAKI QIZLAR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİNƏ DAİR DAXİLİ İNTİZAM QAYDALARI

**Bakı-2023**

**Bakı Qızlar Universitetinin tələbələrinə dair daxili intizam QAYDALARI**

## I. Ümumi müddəalar

1.1. **"**Bakı Qızlar Universietinin tələbələrinə dair daxili intizam Qaydaları" (bundan sonra - "Qaydalar") Bakı Qızlar Universitetində (bundan sonra- "Universitet") tələbələrin davranış qaydalarını müəyyən edən daxili intizam qaydalar məcmusudur.
1.2. Bu Qaydalar Azərbaycan Respublikasının Konstitusiyasına, digər mövcud qanunvericiliyinə ,Universitetin Nizamnaməsinə uyğun olaraq hazırlanmışdır.
1.3. Bu Qaydalar Universitetdə təhsil alan hər bir tələbəyə şamil olunur.
1.4. Bu Qaydalar aşağıdakı prinsiplərə əsaslanır:
1.4.1. Bərabərlik prinsipi: Universitetin tələbələri irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, maddi vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən və digər hallardan asılı olmayaraq bərabər hüquqlar daşıyır;

1.4.2. Ədalət prinsipi: intizam qaydalarını pozmuş tələbəyə tədbiq edilən intizam tənbehi ədalətli olmalıdır;
1.4.3. Humanizm prinsipi: intizam qaydalarını pozmuş tələbəyə tədbiq edilən intizam tənbehi insan ləyaqətini alçaltmaq məqsədi daşıya bilməz.

## II. Ümumi tələblər

2.1. Universitetdə təhsil alan hər bir tələbə aşağıdakılara riayət etməlidir:
2.1.1. Mövcud qanunvericiliyə ,Universitetin Nizamnaməsinə, əsasnamələrinə, rektorun əmrlərinə, Elmi Şuranın qərarlarına və digər aidiyyəti davranış qaydalarına riayət etməlidir;
2.1.2. Universitetin əmlakını qorumalı,bununla bağlı üzləşdiyi neqativ faktlar haqqında Universitetin məsul işçilərinə məlumat verməlidir;
2.1.3. Tələbə adına yaraşmayan hərəkətlərə yol verməməli, Universitetdə səliqə-səhmanın yaradılmasına və qorunmasına dəstək verməli, dərs prosesinin normal gedişinə mane olan hərəkətlər etməməli, tələbə yoldaşlarına, Universitet əməkdaşlarına qarşı diqqətli olmalı, hörmət etməlidir;
2.1.4. Universitetin nüfuzuna ziyan vuran hərəkətlər etməməlidir;
2.1.5. Milli dəyərlərə hörmət etməli, onları qorumalıdır.

## III. İntizam tədbirləri və onların tətbiqi qaydaları

3.1. Tələbə Universitetdə intizamı pozduqda ona qarşı aşağıdakı intizam tədbirlərindən biri tətbiq edilə bilər:

3.1.1.Xəbərdarlıq;
3.1.2. Töhmət;
3.1.3. Şiddətli töhmət;
3.1.4. Universitetdən xaric etmə (mövcud qanunvericiklə müəyyən olunmuş qaydada);

## IV.Xəbərdarlıq

4.1.Xəbərdarlıq tələbəyə şifahi elan edilmiş məzəmmət tədbiridir.

## V. Töhmət

5.1. Töhmət-tələbəyə hərəkət və davranışlarında yol verdiyi pozuntular barədə yazılı şəkildə tənbehdir. Töhmət aşağıdakı hallarda tətbiq edilir:
5.1.1. Başqalarına qarşı kobudluq, hörmətsizlik etmək, başqalarını narahat edəcək dərəcədə qışqırmaq, mahnı oxumaq, musiqiyə qulaq asmaq;

5.1.2. Universitet daxilində icazəsiz elanlar, afişa və plakatlar asmaq;
5.1.3. Universitet tərəfindən asılan elanı korlamaq;
5.1.4. Hərəkətləri və davranışı ilə dərsin normal gedişini pozmaq, dərsdə mobil telefon və digər texniki vasitələrdən dərsdən kənar məqsədlə istifadə etmək;
5.1.5. Mobil telefon və digər texniki vasitələri nəzarətçiyə təhvil vermədən imtahana girmək;
5.1.6. Universitetin divarlarına və əmlakının üzərinə yazı yazmaq, işarələr qoymaq,onları hər hansı digər şəkildə korlamaq;
5.1.7. Tədbirlərin keçirilməsinə mane olmaq, tədbir proqramına xələl gətirəcək hərəkətlər etmək;
5.1.8. Universitet daxilində siyasi və dini təbliğatla məşğul olmaq;
5.1.9. Universitetdə səlahiyyətli şəxslərlə razılaşdırılmadan müxtəlif tədbirlər təşkil etmək və ya belə tədbirlərdə iştirak etmək;
5.1.10. İmtahanda köçürmək və ya köçürməyə şərait yaratmaq;

## VI. Şiddətli töhmət

6.1. Şiddətli töhmət- tələbəyə hərəkət və davranışlarında qüsurlu olduğunu və təkrar intizam pozuntusunun törədəcəyi təqdirdə tədbiq edilən tənbehdir. Şiddətli töhmət tətbiq edilir:
6.1.1. Bu Qaydaların 5-ci maddəsi ilə müəyyən olunmuş hallar təkrarən törədildikdə;

**VII. Universitetdən xaric etmə (müəyyən olunmuş qaydada mövcud qanunvericiliklə).**

7.1. Şiddətli töhmət almış tələbə tərəfindən təkrarən pozuntu törədildikdə tətbiq olunur.

**VIII . İntizam tədbirlərinin tətbiqi qaydaları**

8.1. İntizam qaydalarının pozulması ilə bağlı İntizam tədbiri tətbiq edilməzdən əvvəl tələbədən dekanlıq tərəfindən yazılı izahat alınmalıdır.
8.2. Zəruri hallarda( Universitet rəhbərliyinin mülahizəsinə əsasən) intizam məsuliyyətinə səbəb ola biləcək intizam pozuntusu ilə bağlı maksimum 3 gün, müstəsna hallarda isə 5 gün müddətinə araşdırma aparılır. Ehtiyac olarsa araşdırma müddəti artırıla bilər. Araşdırma rektorun əmrinə əsasən və bu məqsədlə yaradılan komissiya tərəfindən aparılır.
8.3. İntizam tədbiri hadisəsinin baş verməsinin aşkar olunduğu gündən 1 (bir) ay müddətinə tətbiq edilə bilər.
8.4. Araşdırma tamamlandıqdan sonra komissiya uyğun arayış hazırlayır və dekanlığa təqdim edir(rektorluğa müvafiq məruzə etməklə). Fakültə dekanı buna əsasən müvafiq təqdimatla rektorluğa müraciət edir.
8.5. İntizam tədbiri yazılı şəkildə səlahiyyətli vəzifəli şəxsin əmri ilə həyata keçirilir. Tələbə əmrlə 3 gün müddətində tanış edilir. Rektorun müvafiq əmri bütün fakültələrin elanlar lövhələrindən asılır.
8.6. Tələbəyə qarşı görülən intizam tədbiri haqqında məlumat onun şəxsi işinə və transkriptə qeyd edilir.